İPƏK YOLU, No.3, 2023, səh.92-99

# MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ CÜMLƏNİN AKTUAL ÜZVLƏNMƏSİ PROBLEMİ
## (Azərbaycan, ingilis və rus dilləri materialları əsasında)

**Elmira Əliyeva**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail:elmirahaliyeva@yahoo.com

**Xülasə**. Məqalədə cümlənin aktual üzvlənməsi nəzəriyyəsi, onun müxtəlifsistemli dillərdə ifadə vasitələrinin, cümlənin aktual üzvlənməsinin əsas anlayışları olan tema və remanın mahiyyətindən, onların cümlədəki əlaqəsindən bəhs edilir. Göstərilir ki, üslubi cəhətdən neytral nitqdə tema remadan əvvəldə işləndiyi halda, ekspressiv nitqdə cümlənin məntiqi vurğusunu daşımaqla, rema cümlənin əvvəlində işlənə bilər.

**Açar sözlər**: tema, rema, aktual üzvlənmə, qrammatik üzvlənmə.

**THE PROBLEM OF ACTUAL SENTENCE STRUCTURE IN LANGUAGES WITH DIFFERENT SYSTEMS**

**Elmira Aliyeva**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract**. In the article, the theory of the actual division of a sentence, its expression in languages with different systems, the essence of theme and rhema, which are the main concepts of the actual division of a sentence, their relationship in the sentence are discussed. It is shoün that while in stylistically neutral speech the theme is used before rhema, in expressive speech the rhema can be used at the beginning of the sentence while carrying the logical emphasis of the sentence.
**Keywords**: theme, rhema, actual articulation, grammatical articulation;

**ПРОБЛЕМА АКТУАЛЬНОЙ СТРУКТУРЫ ПРЕДЛОЖЕНИЙ В ЯЗЫКАХ С РАЗНЫМИ СИСТЕМАМИ**

**Эльмира Алиева**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье рассмотрена теория актуаль-ного членения предложения, средств его выражения в языках с разным строем, сущность темы и ремы, которые являются основными понятиями актуального членения предложения, обсуж-даются их отношения в предложении. Показано, что если в стилистически нейтральной речи тема употребляется перед ремой, то в экспрессивной речи рема может употребляется в начале предложения, продолжая нести логическое ударение предложения.
**Ключевые слова:** тема, рема, актуальное членение, грамматическое членение, молланасреддинизма.

## 1. Giriş

Aktual üzvlənmənin mexanizmləri və quruluşu, onun təkcə cümlə səviyyəsində deyil, eyni zamanda mətn səviyyəsində reallaşması superfrazanın koqnitiv və kommunikativ xüsusiyyətlərinin qavranılmasında xüsusi əhəmiyyət kəsb edir. Danışan və dinləyənin qarşılıqlı əlaqəsi zamanı ünsiyyət aktı mətndə tam şəkildə açılır, burada qavrayışa anlama və nəticə şəklində cavab verilir.

Məqalənin əsas məqsədi cümlənin və mətnin aktual üzvlənməsi, onun tema-rematik əlaqələrini, ifadə vasitələrini tədqiq etməkdən ibarətdir.

## 2. Problemin tədqiqi tarixi

Cümlənin aktual üzvlənməsi probleminin tədqiqinin iki yüz ilə qədər tarixi vardır. Onun inkişaf tarixini şərti olaraq 4 mərhələyə bölmək olar:

Birinci mərhələ 18-ci əsrin sonu 19-cu əsrin birinci yarısını əhatə edir və əsasən, müxtəlif dillərdə söz sırası qanunauyğunluqları ilə əlaqədardır. Bu öz əksini Ş. Batto, C. Barnet, İ. Adelunq, K. Bekker və A.Veylin əsərlərində tapmışdır. Onların fikrincə, aktual üzvlənmənin işlənməsi şərti hesab edilir [14].

İkinci mərhələ 19-cu əsrin ikinci yarısı və 20-ci əsrin əvvəllərini əhatə edir. Bu dövrdə aktual üzvlənmənin psixoloji nöqteyi-nəzərdən şərhi əsas hesab edilir. Bu yanaşma öz əksini H. Q. fon der Qabelents, H. Paul, A. A. Potebnya, F. F. Fortunatov, A. M. Peşkovski və b. əsərlərində tapmışdır. Bu yanaşmaya görə, cümlə hökmün qrammatik mübtəda və qrammatik predikatla üst-üstə düşməyən psixoloji mübtəda və psixoloji predikatdan ibarət psixoloji ifadə vasitəsidir. Cümlənin bu cür binar quruluşdan ibarət olma fikri V. P. Clanskidən başqa bütün qrammatistlər tərəfindən qəbul edilmiş və qrammatikadan kənara çıxarılmışdır [14].

Cümlənin aktual üzvlənməsinin tədqiqinin üçüncü mərhələsi 20-ci əsrin birinci yarısını əhatə edir. K. Q. Kruşelnitskaya, V. Matezius, A. İ. Smirnitski, V. V. Vinoqradov cümlə- nin aktual üzvlənməsinin linqvistik əsaslarda tədqiqini irəli sürmüşlər.V. Matezius qeyd edirdi ki, cümlənin iki komponentə bölünməsi (O, onları əsas, yəni məlum olan və söyləmin nüvəsi, yəni naməlum, yeni olan adlandırırdı) psixoloji hökm deyil, cümlənin üzvlənməsidir və o, dilçilikdə olan bu hadisəni cümlənin aktual üzvlənməsi adlandırmışdır. Onun fikrincə, hər bir dildə cümlənin aktual və formal üzvlənməsi həmin dilin xarakterik xüsusiyyətləri ilə əlaqəlidir.

Cümlənin aktual üzvlənməsinin dördüncü mərhələsi 20-ci əsrin ikinci yarısından başlayır və problemlə bağlı fikirlərə İ. P. Raspopov, İ. F. Vadul, İ. İ. Kovtunova, Y. N. Şiryayev, O. A. Lapteva və b. əsərlərində rast gəlmək olar. Cümlənin aktual üzvlənməsinin tədqiqinin bu dövründə aktual üzvlənmə, cümlənin formal üzvlənməsi və sintaktik semantika arasında olan əlaqələr, cümlənin aktual üzvlənməsini həyat keçirən vasitələr, xüsusilə intonasiya və söz sırası problemləri, habelə aktual üzvlənmə ilə predikativlik kateqoriyası arasında olan münasibət, tema-məlum olan, verilən ilə rema-naməlum, yeni olan arasındakı əlaqələr öyrənilir [14].

Cümlənin aktual üzvlənməsi məsələsi dilçilikdə məntiqi (F. İ. Buslayev) və psixoloji (F. F. Fortunatov, A. A. Şaxmatov, H. fon der Qabelenç, Paul) nöqteyi-nəzərdən tədqiq edilmiş-dir. Cümlənin aktual üzvlənməsi nəzəriyyəsinin banisi A.Veyl hesab edilsə də, onun nəzə-riyyəsi çex dilçisi V. Matezius tərəfindən inkişaf etdirilmişdir. Qeyd etdiyimiz kimi, cümlənin aktual üzvlənməsi müxtəlif nəzəriyyələr ilə tədqiq edilir. Bəzi dilçilər cümlənin aktual üzvlənməsinin semantik təbiəti konsepsiyasında (V. Matezius, Y. Fibras, F. Daneş) tema-rema faktorunun müəyyənləşməsində məlumluq/naməlumluq anlayışına üstünlük veririlər. Cümlənin aktual üzvlənməsinin sintaktik təbiəti konsepsiyasına (K.G. Kruşelnitskaya) görə, tema-rema dilin qrammatik vasitələri, bəzən də kontekstlə müəyyənləşir [13].

Cümlənin aktual üzvlənməsinin məntiqi mühakiməyə əsasən tədqiqi cümlənin məntiqi-qrammatik üzvlənməsi adını almışdır (L.V. Şerba, V.V. Vinoqradov, S.İ. Bernşteyn). V. Matezius bu konsepsiyanı dəstəkləyərək hesab etmişdir ki, tema (əsas) və rema (nüvə) psixoloji subyekt və predikatla eyniləşir [13].

Müasir dilçilər cümlənin aktual üzvlənməsi məsələsini nitq aktları nəzəriyyəsi ilə əlaqələndirirlər.

### 3. Cümlənin aktual üzvlənməsinin ontoloji paradiqması

Cümlənin və mətnin aktual üzvlənməsini tədqiq edərkən onunla bağlı nəzəriyyə, təsəvvür və yanaşmaları nəzərdən qaçırmaq olmaz. N.V. İvanov aktual üzvlənmə problemini tədqiq edərkən dörd ontoloji yanaşmaya müvafiq dörd mərhələni tədqiq etməyi irəli sürmüşdür.

1. Genetik paradiqma (G.Qabelents, G.Paul və b.). Alman gənc qrammatistləri cümlənin aktual üzvlənməsini tədqiq edərkən onun sintaktik xüsusiyyətləri ilə yanaşı, psixoloji xüsusiyyətlərinin də öyrənilməsini vacib hesab edirdilər. Onlar cümlənin psixoloji üzvlənməsi dedikdə, nəzərdə tutulan fikrin inkişafına əsaslanaraq, onun semantik yönümünün ifadəsini nəzərdə tuturdular. Bu psixoloji faktor sintaksislə müqayisədə ikinci dərəcəli struktur faktoru idi.

2. Struktur-sintaktik paradiqma. Bu paradiqma öz əksini Praqa dilçilik məktəbinin banisi və rəhbəri, çex dilçisi V. Mateziusun əsərlərində tapmışdır. Qeyd etmək lazımdır ki, Praqa dilçilik məktəbinin tərkibinə bir çox görkəmli dilçilər, o cümlədən N. S. Trubetskoy və R. O. Yakobson da daxil idi. V. Matezius cümlənin aktual üzvlənməsini nitq fenomeni hesab edirdi. Alman gənc qrammatistlərindən fərqli olaraq o, cümlənin aktual üzvlənməsinin ünsiyyətdəki əhəmiyyətinə əsaslanaraq, onu cümlənin sintaktik üzvlənməsinə bərabər hesab edidi [3, s. 106].

3. Funksional-semantik paradiqma. Bu paradiqmaya əsasən, cümlənin aktual üzvlənməsi kommunikativ və koqnitiv nöqteyi-nəzərdən tədqiq edilir. Problemin qnoseoloji şərhi bilavasitə dil və təfəkkürlə sıx şəkildə bağlıdır. Buna görə də, aktual üzvlənmə məntiqi-semantik sözlərinə sinonim kimi səslənir [13].

4. Kommunikativ yanaşma ilkin olaraq faktiki bölünmənin söyləmin kommunikativ funksiyasına yaxın olması fikrinə əsaslanırdı, kommunikativ şərtilik isə faktiki bölünmənin əsas səbəbi hesab olunurdu. Lakin sonradan bir sıra meyarların şaxələndirilməsi, şərtiliyə daha geniş yanaşmaların yaranması ilə əlaqədar bir çox müddəalara yenidən baxıldı.

5. Cümlənin aktual üzvlənməsinə semiotik yanaşma işarənin nitq fenomenologiyasının açarı kimi aktual üzvlənmənin dərk edilməsinə əsaslanan yeni yanaşmadır. Bu yanaşmaya görə, cümlə nominativ və predikativ funksiyaları ilə vəhdətdə tədqiq olunan əlamət kimi qəbul edilir. Bu perspektivli istiqamətdir, lakin dilçilərin fikrincə, formalaşmış diskursiv-semiotik paradiqmadan danışmaq hələ tezdir [13].

Rus dilinin stilistik ensiklopediyası lüğətində mətnin aktual üzvlənməsinə belə tərif verilmişdir: nitq –yaradıcılıq prosesinin məhsulu kimi mətnin parametri, xassəsi(qrammatik kateqoriyası), bütün əsərin mətninin kompozisiya planının funksiyasının, əsərin mətninin kommunikativ və semantik birliyinə və bütövlüyünə görə mətnin diskret vahidlərinin olması [8]. Yazılı mətni tədqiq edən İ. R. Qalperin mətnin iki növ üzvlənməsini müəyyənləşdirmişdir:

1. Həcm-praqmatik;

2. Kontekst – variativ;

Birinci növə mətnin cild, kitab, fəsil, abzas, superfrazalarda əksindən, ikinci növdə isə nitq yaradıcı aktlardan, məsələn müəllifin nitqi, təsvir, nəql, dialoqlar, sitatlar, vasitəsiz nitqdən söhbət gedir [6, s. 202].

Mətnin əsas vahidlərini superfraza və söyləm təşkil edir. Superfraza – bir-birilə məna əlaqəsinə görə bağlı olan, ən azı iki cümlədən ibarət olan mürəkkəb vahiddir. Superfraza söyləmlərdən ibarətdir. Mətnin üzvlənməsi nöqteyi-nəzərindən hər cümlə söyləm deyil, lakin hər söyləm cümlədir. Mətnin superfraza vahidi həmişə təktemalıdır. Bir temadan digər temaya keçid superfrazanın sərhədi adlanır.

Tam bir kommunikativ vahid olaraq mətndə ifadə edilən superfraza özündən əvvəlki superfraza ilə aşağıdakı vasitələrlə məna əlaqəsinə girir.

1. Mövqeyinə görə. Tema, adətən, cümlənin əvvəlində, rema isə cümlənin sonunda işlənir. Aktual üzvlənmənin bu cür söz sırası ilə işlənməsi proqressiv, obyektiv və qeyri-emfatik adlanır. Əks halda olanda isə, yəni rema-tema olduqda, aktual üzvlənmə reqressiv, subyektiv və emfatik adlanır.

2. İntonasiya ilə. Rema xüsusi məntiqi vurğu, fasilə ilə deyilir.

3. Remanı fərqləndirən konstruksiyalarla. Bu ingilis dilində qeyri-müəyyənlik artiklı, passiv konstruksiyalarda hərəkətin icraçısını göstərən sözönülü tamamlıq ilə ifadə edilir.

4. Fərqləndirici-məhdudlaşdırıcı sözlərlə. Rus dilində «не» ədatı remanı, «а, же» ədatları isə temanı ifadə edir. Məsələn, Страусы не летают. Все дети пошли на футбол, а Володя остался дома.

5. Kontekstlə. Mətndə və ya cümlədə ifadənin dəqiqləşdirilməsi yolu ilə ifadə edilir[13].

Cümlənin aktual üzvlənməsi ilə bağlı Azərbaycan dilçilərinin fikirləri də maraqlıdır. Belə ki, K.M. Abdullayev cümlə quruluşunda iki səviyyəni ayıraraq, iki cür üzvlənməni fərqləndirir. Bu üzvlənmədən birini sintaktik üzvlənmə, o biri üzvlənməni isə məntiqi – psixoloji funksional – kommunikativ imkanları nəzərə alan məntiqi – sintaktik üzvlənmə, başqa sözlə desək, aktual üzvlənmə hesab edir [1, s. 90-91].

Müəyyən cümlə üzvünün aktuallaşması eyni zamanda müxtəlif qrammatik və leksik elementlərin köməyi ilə də baş verə bilir. K. M. Abdullayev bu vasitələri aktuallaşmaya kömək etdiklərinə görə "aktualizator" termini ilə ifadə edir. Alim Azərbaycan dilində aktuallaşmaya yardımçı olan vasitələrə da ədatını, özü də, belə sözlərini, reduplikasiya (cümlə üzvünün təkrarı) kimi vasitələri aid edir. Qeyd etmək lazımdır ki, bu vasitələrə bədii ədəbiyyat nümunələri ilə yanaşı, şifahi nitqdə, dialoqlarda da çox tez-tez rast gəlinir. Məsələn,

a) Qoca da yalın ayaqlarını altına yığıb onun qabağında dizi üstə oturdu, sonra gözlərini yumub əllərini qoşalayaraq sifətinə yaxınlaşdırdı, astadan dua oxumağa başladı [5, s.11].

b) O da atası kimi gözlərini yumub əllərini sifətinə yaxınlaşdırdı, dua oxuyub salavat çevirdi, yalnız bundan sonra danışmağa başladı [5, s.13].

c) Vavilovun kefi, doğrudan da, yuxarı idi; o, özü də bölüyün təsərrüfat işlərinə baxan İvan Matveyeviçin ad günü münasibətilə düzəltdiyi qonaqlıqda içmişdi [5, s.29].

ç) Qoca ölümdən belə qorxmurdu [5, s. 14].

d) Çoxdandı, lap çoxdandı ki, onlar görüşmürdülər [5, 32].

Leksik mənaya malik sözlər də aktual üzvlənmə komponentlərinin, xüsusilə, remanın ifadəsində özünəməxsus rol oynayır. Belə ki, ingilis dilində remanın ifadə vasitələri rəngarəngliyi ilə fərqlənir. İngilis dilində rema leksik mənaya malik olan sözlər - ədatlar (only, even), Azərbaycan dilində isə yalnız, ancaq, məhz, bircə, təkcə ədatları vasitəsilə ifadə oluna bilər: “Only you (rema) can help me (tema)” ‘Yalnız sən mənə kömək edə bilərsən’. Bununla yanaşı, əvəzliklər də cümlənin aktual üzvlənməsində iştirak edirlər: Jack (rema) is our friend. ‘Cek (rema) bizim dostumuzdur’.

He (tema) is an engineer. ‘O (tema) mühəndisdir.’

Cümlənin aktual üzvlənməsinin təhlilində intonasion prosodik vasitələri, xüsusilə, məntiqi vurğunu nəzərə almamaq qeyri-mümkündür [3]. Belə ki, intonasiya cümlədəki söz qruplarına fikri bitkinlik – predikativlik verir. Məntiqi vurğu remanın əsas göstəricilərindən biri hesab edilir. Eyni bir cümləyə tema və rema planında müxtəlif cür yanaşıla bilər. Sadə nəqli cümlələrdə, adətən, tema əvvəl, rema sonra işlənir; temada ton yuxarı olduğu halda, remada isə məntiqi vurğu ilə nisbətən aşağı tonda tələffüz edilir.

Tabeli mürəkkəb cümlələrin aktual üzvlənməsi də sadə cümlənin aktual üzvlənməsi ilə eynilik təşkil edir. Yəni, burada baş və budaq cümlə ayrı-ayrılıqda üzvlənmir. Onlar bir bütöv kimi çıxış etdiyindən biri tema, digəri isə rema kimi çıxış edir. Belə ki, bu tip mürəkkəb cümlələr iki sadə cümlədən ibarət olur, birinci əsas mövqeyə malik olur, digəri isə köməkçi statusa malik olaraq, ona tabe olur. Semantik və qrammatik strukturu pozmadan onu parçalamaq qeyri-mümkündür: məsələn,

“He looked as though he were extremely disappointed.” ‘O elə görünürdü sanki çox mütəəssir olmuşdu. /Он выглядел так, как будто был крайне разочарован.’ [12, s. 34].

Yuxarıda eyni mənada olan müqayisə budaq cümləli tabeli mürəkkəb cümlə üç dildə- ingilis, Azərbaycan və rus dillərində nümunə kimi verilmişdir. Bu cümlələrə diqqət etsək, görə bilərik ki, baş cümlə (He looked, O elə görünürdü, Он выглядел) tema, budaq cümlə (as though he were extremely disappointed, sanki çox mütəəssir olmuşdu, как будто был крайне разочарован) isə rema qismində çıxış edir.

Baş cümlə budaq cümlənin mövqeyini müəyyən etsə də, cümlənin aktual üzvlənməsi onun sintaktik vəziyyətini ifadə edir. Burada söz sırası cümlənin aktual üzvlənməsində mühüm əhəmiyyətə malik olur. məsələn

"He is called Mitch, because his name is Mitchel." (Onu Miş deyə çağırırlar, çünki adı Mişeldir)

Bu cümlədə baş cümlə temanı, budaq cümlə isə remanı ifadə edir. Əgər cümlədə budaq cümlə əvvəldə, baş cümlə isə ondan sonra gələrsə, tema və remanın yeri dəyişəcəkdir. Məsələn,

"As his name is Mitchell, he is called Mitch."[12, s. 56]. "Onun adı Mişel olduğu üçün onu Miş deyə çağırırlar." Cümləsində informasiya rolları dəyişir, bu zaman budaq cümlə (As his name is Mitchell) -tema, baş cümlə (he is called Mitch) -rema kimi çıxış edir

F. Əlizadə aktual üzvlənmə ilə qrammatik üzvlənmə arasındakı bağlılığı belə ifadə edir: "Qrammatik üzvlənmə kimi, aktual üzvlənmə də cümlənin quruluşunda həm semantik-funksional roluna, həm də formal ifadəsinə görə xarakterizə olunur. Aktual üzvlənmə cümlənin qrammatik üzvlənməsi əsasında yaranır. Təbiidir ki, buna görə də onun komponentlərinin bu və ya digər nisbəti, onların tərkibi və söyləmdəki funksiyaları müvafiq sintaktik konstruksiya quruluşu ilə kommunikativ-sintaktik səviyyədə cümlə kimi çıxış edir." [2, s.75]. K.Vəliyev qeyd edir ki, "Ənənəvi qrammatik üzvlənmə cümlənin informativ yükünü aça bilmir, cümlənin nitq təcrübəsindəki semantik-funksional ifadəsi məsələsi açıq qalır. Əslində, aktual üzvlənmə qrammatik üzvlənməni inkar etmir və inkar edə də bilməz. Çünki bunlar ayrı-ayrı rakurslardır və hər bir dilin öz spesifikasına uyğun zənginliklərə malik olub, ifadə-məzmun planları kimi ortaya çıxır" [4, s.49].

Cümlənin aktual üzvlənməsi problem son 20-30 ildə Ə. Cavadov, Ə. Xəlilov, K. Abdullayev, K.Vəliyev, F. Əlizadə, N. Novruzova, Ə. Abdullayev, Q. Bəyzadə və başqa alimlərin diqqətini cəlb etmiş və bu problemin araşdırılmasına öz tədqiqat işlərində yer vermişlər.

Beləliklə, yuxarıda dediklərimizdən məlum oldu ki, cümlənin kommunikativ-sintaktik üzvlənməsi iki hissədən ibarətdir: tema – söyləmin başlanğıc nöqtəsi və rema –cümlənin əsas məzmunu və ünsiyyət mərkəzi. Məsələn, "Aliyə kitab aldı" cümləsində Aliyə məlum olandır, yəni temadır, Aliyənin kitab alması isə yeni məlumatdır, yəni remadır. Bu cümlənin aktual üzvlənməsidir. Bu termin dilçiliyə əsas elementləri mübtəda və xəbər hesab edilən cümlənin formal üzvlənməsinə qarşılıq olaraq çex dilçisi V. Matezius (1882-1945) tərəfindən gətirilmişdir.

Söyləmin kommunikativ mərkəzi kimi rema mütləq cümlədə ifadə edilməlidir. Cümlədə məlum olanı ifadə edən tema isə bəzən cümlədə, xüsusilə dialoqlarda buraxıla bilər. Məsələn,

1) Nə edirsən?; 2) Когда уезжаешь?;

3) Where are my glasses? in the drawer.

Birinci cümlədə ("Sən nə edirsən?") "sən" məlum olandır, yəni temadır, "nə edirsən?" isə yeni fikirdir, yəni remadır. Gətirdiyimiz nümunədə "Sən" teması buraxıla bilər, çünki cümlənin ümumi kontekstindən asanlıqla anlaşılır. Eyni fikri 2-ci və 3-cü cümlələr haqqında da söyləmək olar. Belə ki, 2-ci cümlədəki "ты" ikinci şəxs əvəzliyi, 3-cü cümlədə isə "they" 3-cü şəxs cəm əvəzliyi tema olmasına baxmayaraq, kontekstdən anlaşıldığı üçün buraxılmışdır. Qeyd etmək lazımdır ki, bu hadisəyə ən çox dialoqlarda, yarımçıq cümlələrdə rast gəlmək olar.

Yalnız remanın iştirak etdiyi cümlələrə hansısa hadisənin mövcud olduğunu və ya baş verdiyini bildirən, aktual üzvlənməyən cümlələr də daxildir. Məsələn,

1) Biri vardı, biri yoxdu, bir padşah vardı.
2) Жили – были старик со старухой.
3) Once upon a time there lived a nice girl.

Üslubi cəhətdən neytral olan nitqdə, adətən, tema remadan əvvəldə işlənir. Bundan başqa, tema yüksək tonla tələffüz edilir, remanın üzərinə isə məntiqi vurğu düşür.

Üslubi cəhətdən ekspressiv nitqdə isə, cümlənin məntiqi vurğusunu daşımağa davam etməklə rema cümlənin əvvəlində işlənə bilər. Məsələn,

a) 1) Fəhlələr ev tikirlər. 2) Рабочие строят дом. 3) The workers are building a house.

Bu cümlələrdə "Fəhlələr" (Рабочие, The workers) temadır. "Ev tikirlər (строят дом, are building a house) isə yeni fikir olduğundan remadır. Bu cümlələri feilin məlum növündən məchul növünə çevirək:

b) 1) Ev fəhlələr tərəfindən tikilir; 2) Дом строится рабочими. 3) The house is being built by the workers.

Bu cümlələrdə "ev" (Дом, The house) tema, "fəhlələr tərəfindən tikilir" (строится рабочими, house is being built by the workers) isə remadır.

Beləliklə, situasiya və kontekstdən asılı olaraq cümlənin istənilən üzvü tema və rema ola bilər. Aktual üzvlənmiş ikitərkibli cümlələrdə mübtəda həmişə tema, xəbər isə rema olur.

Aktual üzvlənmənin komponentləri intonasiya (məntiqi vurğu, fasilə), cümlədə söz sırası, məhdudlaşdırıcı zərflər, kontekst vasitəsilə ifadə edilir.

Remanın göstəricisi qismində qeyri-müəyyənlik artiklı, passiv konstruksiyada işin kim tərəfindən icra edildiyini göstərən sözönülü tamamlıq (agens) çıxış edə bilər. Məntiqi vurğunun eyni cümlədə yerinin dəyişməsi cümlənin tema-remasının da dəyişməsinə səbəb olur. Düzgün söz sırası, yəni tema –rema proqressiv, obyektiv və qeyri-emfatik hesab edildiyi halda, rema-tema aktual üzvlənməsi reqressiv, subyektiv və emfatik hesab edilir. Sabit söz sırasına malik dillərdə (məsələn, ingilis dili) inversiya zamanı mübtəda rema qismində çıxış edir. Məsələn,

In ran the boy. "Oğlan içəri qaçdı."

Remanın cümlənin əvvəlində işlənməsi həmçinin ritmdən , danışanın əsas fikrə diqqəti çəkmək istəyindən də asılı ola bilər. Bu zaman rema kontekstdən asılı olaraq müəyyənləşdirilir. Belə ki, rema –yeni fikir cümlənin əvvəlində, tema –artıq məlum olan isə cümlənin sonunda işlədilir. Məsələn, "Sual vermək istəyirəm sizə." («Вопрос хочу вам задать.»)

**Nəticə**. Beləliklə, cümlənin aktual üzvlənməsini üç dil - Azərbaycan, rus və ingilis dilləri materialları əsasında tədqiq və təhlil etdikdən sonra biz belə bir qənaətə gəldik ki, cümlənin aktual üzvlənməsi hər bir dildə həmin dilin qrammatik quruluşunun tələb etdiyi şəkildə ifadə edilir. Qrammatik üzvlənmə ilə birlikdə aktual üzvlənmə informasiyanın dinləyiciyə daha dolğun şəkildə çatdırılmasına xidmət edir.

## Ədəbiyyat


1. Abdullayev K. (1998), Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Bakı.: "Maarif", 281 s.
2. Əlizadə F. (1981), Aktual üzvlənmə komponentlərinin funksiyası və tərkibi. Azərbaycan dilçiliyi məsələləri. Bakı: ADU.
3. Quliyeva A. (2019), Cümlənin aktual üzvlənməsinin ifadə vasitələri, "Dil və ədəbiyyat", IX cild, №1, s. 106-111.
4. Vəliyev K. (1981), Cümlənin semantik üzvlənməsi, "Azərbaycan dilçiliyi məsələləri, Bakı: ADU, 76 s.
5. Tolstoy L. (2015), Hacı Murad, Bakı.: "Qanun" nəşriyyatı, 191 s.
6. Гальперин И. Р. (2014), Стилистика английского языка. М.: Либроком, 336 с.
7. Матезиус, В. (1967), О так называемом актуальном членении предло-жения, пер. с чеш., в сб.: Пражский лингвистический кружок, М.
8. Стилистический энциклопедический словарь русского языка. (2003), М.: «Флинта», «Наука», Под редакцией М.Н. Кожиной.
9. Beneš E. (1968), On two aspects of functional sentence perspective? V/3, Prague
10. Fibras J. (1966), On defining the theme in functional sentence analysis, Travaux linguistigues de Prague, V. 1, Prague.
11. Mathesius V.( 2005), A functional analysis of present day English on a general linguistic basis, Prague.
12. Maugham W. S. (1985), Theatre, Moscow.: Vyssaya Skola, 222 pp.
13. https://old.bigenc.ru/linguistics/text/1808128